Təsdiq edirəm
ADMİU-nun rektoru
Professor Ceyran Mahmudova
"12" "sentyabr" 2025-ci il

# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

## MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

## TƏHSİL PROQRAMI

**7003010 – Qrafika ixtisasının**
**Dəzgah qrafikası ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003010 – Qrafika ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı **ümumi səriştələrə yiyələnməlidir:**

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

- o fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- o müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- o istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- o davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- o qrafik əsərin sənətşünaslıq və texniki aspektlərini izah və şifahi şəkildə təqdim etmək; o yaradıcılıq prosesini sənədləşdirə bilmək;
- o qrafika sahəsində fəaliyyətin yüksək keyfiyyətli nəticələrinə nail olmaq üçün yaradıcı kollektivdə həmmüəlliflərlə birgə bədii ideyanı həyata keçirə bilmək
- o Azərbaycan və dünya qrafika əsərlərinin bərpası sənətinin tarixi inkişaf mərhələlərini, əsas üslub cərəyanlarını və tanınmış sənətkarların işlərini nəzərə alaraq öz yaradıcılığında tətbiq etmək;
- o müxtəlif dövrlərin estetik xüsusiyyətlərini çağdaş tələblərlə uyğunlaşdırmağı bacarmaq.

***Qeyd:*** *ixtisasın xüsusiyyətindən asılı olaraq ümumi səriştələrə əlavələr edilə bilər.*

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı **peşə səriştələrinə yiyələnməlidir:**

***Dəzgah qrafikası ixtisaslaşması üzrə:***

- Azərbaycan və dünya qrafikasının əsas inkişaf mərhələlərini, üslub cərəyanlarını və texniki xüsusiyyətlərini nəzərə alaraq klassik və çağdaş qrafik üslubları yaradıcı prosesdə estetik baxımdan mənimsəmək və tətbiq etmək;
- qrafika sahəsində aparıcı rəssamların işlərini təhlil edə bilmək;
- vizual konsepsiyanı (qrafik ideyanı) eskizdən yekun nəticəyə qədər planlaşdırmaq,
- texniki və texnoloji prosesləri ardıcıllıqla tətbiq etmək;
- çap üsulları, materialların xüsusiyyətləri və emalatxana şəraitində texniki nəzarət prinsiplərini nəzərə alaraq klassik və müasir texnologiyalarla sərbəst işləmək; - tapşırığa müvafiq material və alətlər seçmək və tətbiq etməyi bacarmaq;
- müxtəlif texnoloji üsullardan (linoqravüra, ksiloqravüra, ofort, rəngli ofort, rəngli estamp, litoqrafiya və digər dəzgah qrafikası texnologiyaları) istifadə etməklə orijinal qrafik əsərlər yaratmaq;
- müxtəlif çap üsullarının bədii və texniki imkanlarını tətbiq etmək;
- müxtəlif növ janrlar haqqında biliklərindən istifadə edərək orijinal əsər yarada bilmək;
- işıq-kölgə münasibətləri və ağ-qara rənglərdən istifadə etməklə əsər yarada bilmək;
- kompozisiyada forma, rəng və faktura vasitələrindən yaradıcı şəkildə istifadə edərək fərdi üslubunu inkişaf etdirmək;
- müasir bədii dilə uyğun vizual ifadə formalaşdırmaq;
- qrafikada rəsmin əhəmiyyətini nəzərə alaraq naturadan işləmək bacarığını inkişaf etdirmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Dəzgah qrafikası | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub,* | 6 |
| | *mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**<br>*ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır.* | |
| 3 | **Ali məktəb pedaqogikası və psixologiyası**<br>*Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və* | 6 |

| | | |
|---|---|---|
| | müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər. | |
| 4 | **Dəzgah qrafikasında akademik rəngkarlıq 1**<br><br>Dəzgah qrafikasında akademik rəngkarlıq 1 fənni – tələbələrə rəngkarlığın əsas prinsiplərini qrafika ilə əlaqəli şəkildə öyrədən fənndir. Məqsəd rəng, konstruktiv qurulma, stilizə etmə, anatomiya və plastikanı düzgün qavrama bacarıqlarını, işıq-kölgə və kolorit vasitəsilə qrafik əsərlərin bədii ifadəliliyini gücləndirmək və peşəkar təsviri bacarıqlar formalaşdırmaqdır. Bu fənn tələbələrə naturadan insan fiquru (geyimli, çılpaq, bir, iki və ya üçfiqurlu quruluş), təbiət və predmetlərin dəqiq, realistik və akademik təsvirini öyrədir. Məqsəd rəng vasitəsilə obraz yaratmaq və vizual ifadə səriştəsini formalaşdırmaqdır.<br>Bu fənn magistrantların dəzgah qrafikası sahəsində rəngkarlıq texnikalarını dərindən mənimsəməsinə, rəng vasitəsilə ifadə və kompozisiya bacarıqlarını inkişaf etdirməsinə yönəlmişdir. Fənn tələbələrə həm klassik, həm də müasir qrafik materiallarla işləməyi (sulu boya, akril, quaş, tempra, qarışıq texnika və s.) dəzgah texnologiyaları çərçivəsində peşəkar rəng həlləri yaratmağı öyrədir.<br>Dəzgah qrafikası üçün uyğun rəng texnikalarının və materiallarının öyrənilməsi;<br>Rəng, ton, işıq-kölgə və faktura vasitəsilə vizual təsirin yaradılması;<br>Kompozisiyada rəng harmoniyasının tətbiqi və obrazlı ifadənin inkişaf etdirilməsi;<br>Etüdlər, eskizlər və dəzgah əsərlərinin mərhələli icrası;<br>Rəng vasitəsilə konseptual və tematik ideyaların ifadəsi;<br>Müasir və klassik dəzgah qrafikası təcrübələrinin təhlili və sintezi. | 6 |
| 5 | **Dəzgah qrafikasında akademik rəngkarlıq 2**<br><br>Dəzgah qrafikasında akademik rəngkarlıq 2 fənni –"Akademik rəngkarlıq" fənni — dəzgah qrafikası üzrə təhsil alan magistr tələbələrində rəngkarlığın qanunauyğunluqlarını dərindən mənimsətmək, formaya, işığa, kölgəyə və rəng harmoniyasına peşəkar yanaşma bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Bu fənn həm akademik rəssamlıq məktəbinin prinsiplərinə, həm də qrafika ilə rəngkarlığın sintezinə əsaslanır.<br>Bu fənn çərçivəsində tələbələr aşağıdakı bacarıqları mənimsəyir:<br>Forma və plastikanın rəng vasitəsilə həlli: Rənglə həcmin verilməsi, konstruktiv quruluşun rəngli tonlarla ifadəsi.<br>İşıq-kölgə və tonal sistem: Təbii və süni işıqlandırmada obyektlərin tonal analizi, işıq-kölgə ritminin qurulması.<br>Rəng harmoniyası və kolorit: İsti–soyuq, kontrast–uyğun rəng münasibətləri, klassik və müasir kolorit yanaşmaları. | 6 |

| | | |
|---|---|---|
| | *Qrafik düşüncə ilə rəngkarlıq sintezi: Xətt, kontur və kompozisiya baxımından qrafikanın prinsiplərinin rəngkarlıqda tətbiqi.* | |
| 6 | **Dəzgah qrafikasında tematik kompozisiya 1**<br>*Fənn tələbələrə tematik ideyanı bədii ifadə vasitələri ilə aydın və peşəkar səviyyədə göstərmək, həmçinin konseptdən yekun əsərə qədər olan mərhələləri idarə etmək imkanını verir. Məqsəd obrazlı düşüncəni inkişaf etdirmək, kompozisiya quruluşu və qrafik ifadə vasitələrindən yaradıcılıqla istifadə bacarıqlarını formalaşdırmaqdır.*<br>*Bu fənn magistrantların dəzgah qrafikası sahəsində mövzuya uyğun yaradıcı və konseptual kompozisiya hazırlamaq bacarığını inkişaf etdirməyə yönəlmişdir.*<br>*Tematik kompozisiya anlayışı, məqsədi və prinsiplərini;*<br>*Eskiz, etüd və layihə mərhələlərində tematik yanaşmanın tətbiqini;*<br>*Rəng, ton, forma və perspektiv vasitəsilə ideyanın gücləndirilməsini;*<br>*Müxtəlif dəzgah qrafikası materialları və texnikaları ilə işləməsini;*<br>*Dramaturji və konseptual ideyanın vizual həllə çevrilməsini;*<br>*Tarixi və müasir qrafika təcrübələrinin təhlili və tətbiqini;*<br>*Yekun dəzgah əsərinin yaradılması və təqdimatını.* | 6 |
| 7 | **Dəzgah qrafikasında tematik kompozisiya 2**<br>*"Tematik kompozisiya" fənni tələbələrdə ideyaya əsaslanan bədii təsvir yaratmaq bacarığını formalaşdırır. Bu fənn süjetli və məzmunlu qrafik əsərlərin quruluşunu, obrazların qarşılıqlı münasibətini, kompozisiya ritmini və məkan həllini elmi-praktik şəkildə öyrədir. Məqsəd, tələbənin yalnız texniki bacarıqlarını deyil, həm də yaradıcı düşüncə və orijinal bədii ideya qurmaq qabiliyyətini inkişaf etdirməkdir.*<br>*"Tematik kompozisiya" fənni – dəzgah qrafikasında bədii düşüncə mədəniyyətinin, vizual hekayələndirmə bacarığının, orijinal yaradıcılıq üslubunun formalaşması üçün əsas baza hesab olunur. Bu fənn həm də gələcək illüstrator, kitab qrafiki, plakat ustası, konseptual rəssam və pedaqoq üçün vacib nəzəri-praktik təməl yaradır.* | 6 |
| 8 | **Dəzgah qrafikasında akademik rəsm 1**<br>*Dəzgah qrafikasında akademik rəsm 1 fənni – Bu fənn tələbələrə naturadan insan fiquru (geyimli, çılpaq, bir, iki və ya üçfiqurlu quruluş), təbiət və predmetlərin dəqiq, realistik və akademik təsvirini öyrədir. Tələbələrə forma, proporsiya, perspektiv, konstruktiv qurulma, anatomiya, kompozisiya, işıq-kölgə və ton qanunauyğunluqlarını öyrədərək qrafik təsvirin elmi və bədii əsaslarını mənimsədən fəndir. Məqsəd dəzgah qrafikasında peşəkar təsviri bacarıqlar və yaradıcılıq səriştəsi formalaşdırmaqdır.*<br>*Bu fənn magistrantların dəzgah qrafikası sahəsində təsviri bacarıqlarını dərindən inkişaf etdirməyə, vizual təfəkkür və bədii müşahidə* | 6 |

| | | |
|---|---|---|
| | *qabiliyyətlərini gücləndirməyə yönəlmişdir. Fənn tələbələrə akademik rəsm prinsiplərini dəzgah qrafikası texnologiyaları ilə birləşdirərək peşəkar səviyyədə yaradıcılıq imkanları təqdim edir.* | |
| 9 | **Dəzgah qrafikasında akademik rəsm 2**<br><br>*Dəzgah qrafikasında akademik rəsm 2 fənni – "Akademik rəsm" fənni magistr pilləsində tələbələrdə formanın konstruktiv quruluşunu, anatomiya qanunlarını, perspektiv, işıq-kölgə və plastik həll üsullarını dərindən mənimsətmək; qrafik düşüncəni peşəkar səviyyəyə yüksəltmək məqsədi daşıyır.*<br>*Bu fənn — qrafik sənətində bədii təfəkkürün formalaşması, vizual müşahidə qabiliyyətinin inkişafı, peşəkar plastika və forma analizinin əsasını təşkil edir.* | 6 |
| 10 | **Yaradıcılıq işinin hazırlanması 1**<br><br>*Yaradıcılıq işinin hazırlanması fənni 1 – tələbələrə fərdi ideya və konsepsiyaya əsaslanan sənət əsərləri və layihələr hazırlamağı öyrədən fənndir. Məqsəd yaradıcılıq bacarıqlarını inkişaf etdirmək, sərbəst yaradıcılıq işi (kompozisiya) qurma bacarığını aşılamaq, layihəni planlama və realizə etmə səriştəsini formalaşdırmaqdır.*<br>*Bu fənn magistrantlara müstəqil yaradıcılıq bacarıqlarını inkişaf etdirmək, əldə etdikləri praktik və nəzəri bilikləri yekun layihə şəklində tətbiq etmək məqsədi daşıyır. Fənn tələbələrə yaradıcılıq işinin konseptual ideyadan yekun icraya qədər bütün mərhələlərini planlaşdırmaq və həyata keçirmək imkanı verir.*<br>*Yaradıcılıq mövzusunun seçilməsi və elmi-tədqiqat planının hazırlanmasını;*<br>*Layihənin konseptual, kompozisiya və texnoloji eskizlərinin işlənməsini;*<br>*Seçilmiş material və texnologiyaların tətbiqini;*<br>*Yaradıcı prosesin mərhələli icrası və texniki həyata keçirilməsini;*<br>*Hesabatın hazırlanması və təqdimatını;*<br>*Mövcud nəzəri biliklərin və müasir təcrübələrin layihəyə inteqrasiyasını;*<br>*Yekun əsərin təqdimatı və müdafiəsi üçün sərgi və ya vizual materialların hazırlanmasını mənimsəməyə kömək edir.* | 6 |
| 11 | **Yaradıcılıq işinin hazırlanması 2**<br><br>*Yaradıcılıq işinin hazırlanması fənni 2 – Bu fənnin məqsədi magistr tələbələrində fərdi yaradıcılıq konsepsiyasının formalaşdırılması, qrafik əsərlərin elmi-təcrübi əsaslarla hazırlanması, ideyadan bitkin sənət nümunəsinə qədər olan yaradıcı prosesin planlaşdırılması və sənədləşdirilməsi bacarığını inkişaf etdirməkdir. Fənn tələbəni gələcək diplomi işinə, sərgi layihəsinə və ya müəllif qrafik silsiləsinin yaradılmasına hazırlaşdırır.* | 6 |

| | | |
|---|---|---|
| | *Bu fənn dəzgah qrafikası üzrə magistr təhsilinin kulminasiya mərhələsidir. O, tələbəni sadəcə icraçı deyil, fikri, ideyası və müəllif mövqeyi olan yaradıcı sənətkar kimi formalaşdırır. Nəticədə tələbə həm praktiki sənət əsəri, həm də konseptual əsaslandırılmış yaradıcılıq layihəsi təqdim edə bilir.* | |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**[2]<br>*Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır.* | |
| 12 | **a) Dəzgah qrafikasında ənənəvi çap üsulları**<br>*Bu fənn magistrantlara dəzgah qrafikası sahəsində klassik və ənənəvi çap üsullarını (linoqravüra, ofort, kseloqrafiya və s.) dərindən mənimsəmək, texniki bilik və bacarıqlarını peşəkar səviyyədə inkişaf etdirmək imkanı verir. Məqsəd ənənəvi üsullarla yüksək keyfiyyətli qrafik əsərlər yaratmaq və texniki bacarıqları inkişaf etdirməkdir.*<br>*Fənn həm praktik, həm də nəzəri aspektləri əhatə edir və tələbələri həm sənətkar, həm də tədqiqatçı kimi yetişdirir.*<br>*Ənənəvi çap üsulları: linolyum, mis, daş, orqsteklo və s. üzərində işləmə texnikaları;*<br>*Kompozisiya və rəng harmoniyasının ənənəvi çap əsərlərində tətbiqini;*<br>*Material və alətlərin xüsusiyyətlərinin öyrənilməsini;*<br>*Klassik və müasir dəzgah qrafikası nümunələrinin təhlili və tətbiqini;*<br>*Yekun çap əsərinin hazırlanması və təqdimatını.*<br>**b) İşgüzar xarici dil**<br>*Təhsil proqramının strukturu ümumi fənnlər bölməsində əks olunur və əsas fənnlər bölməsinin tərkibindədir. "İşgüzar xarici dil (ingilis dili)" fənni magistratura səviyyəsində təhsil alan tələbələrə ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyət və adət-ənənələrini, nitq etiketləri qaydalarını öyrədir. Xarici dildə lüğətin köməyi ilə oxumaq və yazmaq vərdişlərinə, ali tədris müəssəsində tədris və tədqiqat işləri aparmağa yiyələndirir.* | 6 |
| 13 | **a) Materialda işin texnologiyası**<br>*Materialda işin texnologiyası fənni – tələbələrə müxtəlif materiallarla (kağız, metal, linoneum və s.) işləmə üsullarını, texniki prosedurlarını və onların bədii ifadə imkanlarını öyrədən fənndir. Məqsəd materiallardan səmərəli istifadə etməklə yaradıcı və peşəkar iş bacarıqlarını inkişaf etdirməkdir.*<br>*Bu fənn magistrantlara müxtəlif incəsənət və tətbiqi sənət materialları ilə işləmək üzrə nəzəri və praktik biliklərin verilməsinə yönəlmişdir. Fənn tələbələrə materialların xüsusiyyətlərini dərindən anlamaq və yaradıcı prosesdə peşəkar səviyyədə tətbiq etmək bacarığını qazandırır.* | 6 |

| | | |
|---|---|---|
| | *Müxtəlif materialların (kağız, taxta, metal, parça, boya və s.) xüsusiyyətləri və istifadəsini;*<br>*Materialın səthinə hazırlıq, işləmə və qoruma üsullarını;*<br>*Qrafika və dəzgah texnologiyalarında material seçimi və tətbiqini;*<br>*Texniki prosedurların və yaradıcı prosesin mərhələli icrasını;*<br>*Materialın davranışını nəzərə alaraq layihələrin reallaşdırılmasını;*<br>*Tarixi və müasir sənət təcrübələrinin material istifadəsinə təsirini;*<br>*İş zamanı təhlükəsizlik və materialların saxlanması qaydalarını mənimsəməyə kömək edir.* | |
| | **b) Bədii plakat**<br>*Bu fənn magistr tələbələrinə plakat sənətini bədii, konseptual və texnoloji baxımdan müasir səviyyədə mənimsəmək, öz fərdi yaradıcılığını ifadə etmək və qrafika sahəsində müstəqil tədqiqat və tətbiq işi aparmaq imkanı yaradır. Fənn magistr tələbələrinə plakat janrının bədii, estetik və kommunikativ xüsusiyyətlərini dərindən öyrədir, müasir vizual ifadə vasitələrindən istifadə etməklə yaradıcı və konseptual düşünmə qabiliyyətini formalaşdırır. Tələbə plakatın ictimai təsir gücünü, bədii kompozisiyasını və vizual dilini professional səviyyədə mənimsəyir.* | |
| 14 | **a) Qrafika əsərlərinin təhlili**<br>*Bu fənn qrafika sənətinin tarixi inkişafını, texniki əsaslarını, material-alət sistemlərini, qrafikanın təsnifatı və çoxşaxəli işlənmə üsullarını magistratura səviyyəsində elmi şəkildə tədris edir. Fənnin əsas məqsədi qrafika əsərlərinin təhlili üçün elmi-metodoloji baza yaratmaq, magistranta həm klassik, həm də müasir qrafika nümunələrinə çoxsəviyyəli yanaşma bacarığı qazandırmaqdır. Tədris prosesində qrafikanın iki əsas istiqaməti – rəsm və çap qrafikasının texniki üsulları (quru və sulu texnikalar, ksiloqrafiya, litoqrafiya, linoqravüra, akvatinta, ofort və s.) elmi-nəzəri kontekstdə öyrənilir. Həmçinin kitab qrafikası, tətbiqi qrafika, plakat, ekslibris, elmi-tədqiqat qrafikası kimi sahələrdə bədii həll prinsipləri araşdırılır.*<br>*Qrafik əsərlərin təhlili zamanı kompozisiya quruluşu, xəttin plastikasından yaranan semantika, ton-ləkə mütənasibliyi, ikonoloji və ikonqrafik şərh metodları, material seçiminin bədii-estetik nəticələri və müəllif manerası nəzərdən keçirilir. Fənn tələbəyə qrafik əsərləri həm tarixi-mədəni kontekstdə, həm də texniki-bədii meyarlar əsasında interpretasiya etmək bacarığı formalaşdırır.* | 6 |
| | **b) Təsviri sənət əsərlərinin təhlili**<br>*Fənn magistratura səviyyəsində təsviri sənətin üç əsas sahəsi – qrafika, rəngkarlıq və heykəltəraşlıq üzrə əsərlərin elmi-analitik araşdırma prinsiplərini öyrədən kompleks fəndir. Fənn magistranta təsviri sənətin tarixi inkişaf mərhələlərini, texniki-material əsasları, forma və kompozisiya qanunauyğunluqlarını, bədii ifadə vasitələrinin semantik yükünü və üslubi tipologiyanı sistemli şəkildə təhlil etmə bacarığı qazandırır.*<br>*Fənn qrafikada xətt-plastikanın, ton-ləkə münasibətlərinin və çap texnikalarının; rəngkarlıqda kolorit sistemlərinin, işıq-kölgə həllinin, faktura və yaxma texnikalarının; heykəltəraşlıqda həcm, siluet, material və* | |

| | | |
|---|---|---|
| | *plastikanın rolunun elmi araşdırılmasını nəzərdə tutur. Tələbə təsviri sənət əsərlərinin texniki, struktur, üslubi və məzmun səviyyələrini mərhələli şəkildə təhlil etmə metodlarını mənimsəyir.*<br>*Fənnin əsas məqsədi müxtəlif təsviri sənət növlərində əsərin kompozisiya quruluşunu, texniki-tətbiqi əsaslarını, ikonoloji və ikonqrafik mənalandırma üsullarını, obrazın semantik sistemini, müəllif üslubunu və tarixi-mədəni konteksti elmi baxımdan araşdırmaq və bu proseslərin nəticələrini peşəkar səviyyədə formalaşdırmaqdır.* | |
| | **Təcrübə** | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| **CƏMİ** | | **90** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir. Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***Dəzgah qrafikası ixtisaslaşması üzrə:***
Sink, bitum, lak (vernik), şaber, iynə və s. materiallarla işləməyə uyğunlaşdrılmış ixtisaslaşdırılmış emalatxanalar; forma və praktika üzrə məşq otaqları; ofortun, ksiloqrafiyanın, linoqravürün, litoqrafiyanın işlənməsində iştirak edən mis, sink, turşu, peç, aşılama şkafı, akvatinta şkafı, laklar, dəzgahlar, daşlar, ksiloqrafiya üçün taxta lövhə, linoleum, alətlər, ştixellər;

kompozisiya və material üzrə iş otaqları; eskiz hazırlığı və kompozisiya üçün qrafik proqram təminatları; molbert; planşet; palitra masası; podiyum (poza nümayişçilərinin durduğu yer üçün lazım olan səth); reflektorlar; rəngli müxtəlif növ parçalar (naxışlı, güllü, zolaqlı və s.); dərs prosesində naturada istifadə olunan geyimlər, əşyalar, gips detallar (həndəsi fiqurlar və heykəllər (gips baş, qulaq, burun, göz, qol, ayaq və s. kimi heykəllər), əşyalar (saxsı qablar, məişət əşyaları və s.) plastik və süni meyvə, qurudulmuş heyvan maketləri və s.; qrafika çap dəzgahı; hava sorucu texnologiya ilə təmin olunmuş çap prosesi üçün emalatxanalar; çap prosesi üçün vannalar; çap prosesində lazım olan tipoqrafik rənglər, roliklər, keçələr və şpaterlər; anatomiya (təcrübi) dərsində istifadə olunan skelet və detalları ilə təmin olunmalıdır.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. **Dəzgah qrafikası** ixtisaslaşması üzrə magistratura təhsili almış mütəxəssis Mədəniyyət Nazirliyinin nəzdində olan fondlarda; qrafika sahəsini təmzimləyən mədəniyyət və yaradıcı qurumlarda ekspert; dövlət və özəl sifarişlər əsasında qrafik əsərlərinin müəllifi; muzeylərdə və sərgi salonlarında ekspozisiya üzrə kurator; çap evləri və nəşriyyatlarda; müstəqil rəssam; repetitor; incəsənət məktəbləri, orta və ali təhsil müəssisələrində pedaqoq; qalereya, sərgi və muzeylərdə rəssam, layihə rəhbəri, kurator, bədii rəhbər işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

***Dəzgah qrafikası ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
| --- |
| **PTN 1.** Azərbaycan və dünya qrafikasının əsas inkişaf mərhələlərini, üslub cərəyanlarını və texniki xüsusiyyətlərini nəzərə alaraq klassik və çağdaş qrafik üslubları yaradıcı prosesdə estetik baxımdan mənimsəyəcək və tətbiq etməyi bacaracaq. Qrafik əsərin sənətşünaslıq və texniki aspektlərini izah etməyi, şifahi şəkildə təqdim etməyi və yaradıcılıq prosesini sənədləşdirməyi bacaracaq. Qrafika sahəsində aparıcı rəssamların işlərini təhlil edə biləcək. |
| **PTN 2.** Vizual konsepsiyanı (qrafik ideyanı) eskizdən yekun nəticəyə qədər planlaşdıracaq, texniki və texnoloji prosesləri ardıcıllıqla tətbiq etməyi bacaracaq. Çap üsulları, materialların xüsusiyyətləri və emalatxana şəraitində texniki nəzarət prinsiplərini nəzərə alaraq klassik və müasir texnologiyalarla sərbəst işləməyi bacaracaq. |
| **PTN 3.** Tapşırığa müvafiq material və alətlər seçməyi bacaracaq. Müxtəlif texnoloji üsullardan (linoqravüra, ksiloqravüra, ofort, rəngli ofort,rəngli estamp, litoqrafiya və digər dəzgah qrafikası texnologiyaları) istifadə etməklə orijinal qrafik əsərlər yaradacaq. Müxtəlif çap üsullarının bədii və texniki imkanlarını tətbiq etməyi bacaracaq. Müxtəlif növ janrlar haqqında biliklərindən istifadə edərək orijinal əsər yaratmağı bacaracaq. İşıq-kölgə münasibətləri və ağ-qara rənglərdən istifadə etməklə əsər yaratmağı bacaracaq. |
| **PTN 4.** Kompozisiyada forma, rəng və faktura vasitələrindən yaradıcı şəkildə istifadə edərək fərdi üslubunu inkişaf etdirəcək və müasir bədii dilə uyğun vizual ifadə formalaşdırmağı bacaracaq. Dəzgah rəngkarlığı ilə heykəltəraşlıq kompozisiyasının fərqini bilərək mövzunun, süjetin obrazlı plastik həllini verə biləcək. Qrafikada rəsmin əhəmiyyətini nəzərə alaraq naturadan işləmək bacarığını inkişaf etdirməyi bacaracaq. |
| **PTN 5.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Dəzgah qrafikası sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| **PTN 6.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| **PTN 7.** Dəzgah qrafikası sahəsində fəaliyyətin yüksək keyfiyyətli nəticələrinə nail olmaq üçün yaradıcı kollektivdə həmmüəlliflərlə birgə bədii ideyanı həyata keçirməyi bacaracaq. |

| |
|---|
| **PTN 8.** Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirməyi bacaracaq. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olacaq və tətbiq etməyi bacaracaq. |

| **Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etməyi bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |
| **Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |

| |
|---|
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |
| **Dəzgah qrafikasında akademik rəngkarlıq 1 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Rənglə (sulu boya, akril, tempera, quaş və s.) işləmə təcrübəsi və nəzəriyyəsi, kolorit və rəng münasibətlərinin qanunauyğunluqlarını mənimsəyəcək. İşıq–kölgə, ton və rəng keçidlərinin forma və həcmin verilməsində rolunu anlayacaq. |
| **FTN 2.** Perspektiv və məkanın rəngkarlıq vasitələri ilə ifadəsini öyrənəcək. Klassik akademik rəngkarlıq ənənələri və ustad rəssamların yaradıcılıq prinsipləri ilə tanış olacaq. |
| **FTN 3.** Naturadan (fiqur, natürmort, landşaft, geyimli, çılpaq, iki və ya üçfiqurlu quruluş) rəngkarlıq etüdləri və kompozisiyaları işləyəcək. Kolorit həllini düzgün seçmək və ton–rəng balansını qurmaq bacarığı qazanacaq. |
| **FTN 4.** Müxtəlif texniki vasitələrlə (sulu boya, akril, tempera, quaş və s.) işləyəcək. Obrazlı ifadə vasitələrindən istifadə edərək bədii ideyanı rənglə çatdıracaq. |
| **FTN 5.** Fərqli material və səthlərdə rəng tətbiq etməyi bacaracaq. Kağız, kətan və digər səthlərdə sulu boya, akril və tempera boyalarla effektiv işləyə biləcək. |
| **FTN 6.** Müasir və klassik rəngkarlıq texnologiyalarından istifadə etmək bacarığına yiyələnəcək. Yeni rəng texnikaları, qarışıq üsullar və dekorativ elementlərlə eksperiment aparacaq. |
| **FTN 7.** Rəngkarlıq vasitəsilə naturanın (geyimli və ya çılpaq, bir, iki və ya üçfiqurlu) məkanda dərinliyini, ölçü və plastikasını realistik şəkildə təsvir edə biləcək. |
| **Dəzgah qrafikasında akademik rəngkarlıq 2 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Klassik rəngkarlıq prinsiplərinə əsaslanan qrafik təsvir vərdişlərini formalaşdıracaq, rəng, ton, işıq və kompozisiya anlayışlarını dərindən mənimsəyəcək. Müşahidə qabiliyyətini və yaradıcılıq təfəkkürünü inkişaf etdirəcək, onun bədii ifadə imkanlarını genişləndirəcək. |
| **FTN 2.** İşıq və rəng münasibətlərini dərk edəcək, ton dəyərlərini düzgün müəyyən etməyi və səthdə həcmi rəng vasitəsilə ifadə etməyi bacaracaq. |
| **FTN 3.** İnsan fiquru, natürmort və məkansal quruluşların akademik əsaslarla təsvirini həyata keçirəcək. Bu mərhələ formanın quruluşunu, proporsiya və perspektiv qanunauyğunluqlarını rəng vasitəsilə ifadə etmək bacarığını möhkəmləndirəcək. |
| **FTN 4.** Materialların texniki xüsusiyyətlərini, fakturaların yaradılmasını və səthlərin işlənmə üsullarını təcrübədə öyrənəcək. |
| **FTN 5.** Kompozisiyada vizual bütövlük yaratmağı, işıq-rəng harmoniyasını düzgün qurmağı və məkan dərinliyini rəng vasitəsilə ifadə etməyi bacaracaq. Bu mərhələdə klassik və müasir rəngkarlıq prinsiplərini müqayisəli şəkildə təhlil etməyi öyrənəcək. |
| **FTN 6.** Rəngkarlığın akademik bazasına yiyələnəcək, formanın və məkanın rənglə ifadə üsullarını mənimsəyəcək, qrafik və rəngkarlıq təfəkkürünü sintez etmə bacarığı qazanacaq. |
| **FTN 7.** Rəngkarlıq texnikalarından istifadə etməyi, akademik prinsipləri fərdi yaradıcılıq baxımından inkişaf etdirməyi və bu bilikləri qrafik əsərlərin hazırlanmasında tətbiq etməyi bacaracaq. |

| Dəzgah qrafikasında akademik rəsm 1 fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Dəzgah qrafikası akademik rəsmində naturanın (geyimli və ya çılpaq, bir, iki və ya üçfiqurlu) dəqiq proporsiyalarını, plastikasını və həcmini yaratmağı bacaracaq. |
| **FTN 2.** İşıq-kölgə (ştrix, ton) vasitəsilə həcmin verilməsi üsullarını öyrənəcək. |
| **FTN 3.** Kağız, karton, qrafit, kömür, sangina, tuş və digər materiallarla işləmə texnikasına yiyələnəcək. |
| **FTN 4.** Rəsm sənətinin qanunauyğunluqlarını, akademik məktəbin prinsiplərini dərk edəcək. Perspektiv, proporsiya, konstruksiya və kompozisiya qaydalarını mənimsəyəcək. |
| **FTN 5.** Naturanın xarakterini düzgün ifadə etmə bacarığına sahib olacaq. |
| **FTN 6.** İncəsənət tarixi və klassik rəssamların iş üsullarına dair biliklər qazanacaq. |
| **Dəzgah qrafikasında akademik rəsm 2 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Akademik rəsmin qanunauyğunluqlarını dərindən mənimsəyəcək və bu bilikləri dəzgah qrafikası istiqamətində yaradıcı tətbiq etməyi bacaracaq. |
| **FTN 2.** İnsan fiqurunun, başın və bədənin konstruktiv quruluşunu öyrənəcək. Anatomiya, proporsiya və perspektiv qanunlarını nəzərə alaraq formanın düzgün qurulmasını təmin edəcək. |
| **FTN 3.** İşıq və kölgə münasibətlərini dərk etməklə ton balansını yaradacaq. İşıq mənbəyinin istiqamətinə əsaslanaraq forma üzərində tonal keçidləri düzgün qurmağı, həcmin dərinliyini və səthin fakturasını ifadə etməyi öyrənəcək. |
| **FTN 4.** Akademik rəsmin əsas prinsiplərini qrafik yaradıcılıqla birləşdirməyi, fiqur və məkan münasibətlərini düzgün qurmağı, işıq və ton vasitəsilə həcmi ifadə etməyi bacaracaq. Bədii görmə qabiliyyətini və rəssamlıq təfəkkürünü inkişaf etdirərək gələcək yaradıcılıq və ixtisas yönümlü layihələr üçün zəruri peşəkar baza qazanacaq. |
| **FTN 5.** Müxtəlif material və texnikalarla işləmə bacarığı qazanacaq. Qələm, kömür, sangina, pastel kimi materiallarla işləyərkən xətlərin xarakterini və ifadəliliyini idarə etməyi, fakturanı düzgün qurmağı öyrənəcək. |
| **FTN 6.** Bədii forma ilə texniki icra arasında əlaqə quracaq, real müşahidəni yaradıcılıq baxımından ümumiləşdirərək fərdi ifadə tərzini formalaşdıracaq. |
| **Dəzgah qrafikasında tematik kompozisiya 1 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Mürəkkəb və tematik quruluşlu kompozisiya prinsiplərini biləcək və tətbiq etməyi öyrənəcək. Əsərin mövzusuna uyğun obrazları yaratmağı bacaracaq. |
| **FTN 2.** Kompozisiya və perspektiv bacarıqlarını inkişaf etdirəcək. Müxtəlif perspektiv üsullarını və vizual tarazlığı tematik əsərlərdə tətbiq edəcək. |
| **FTN 3.** Forma, işıq və kölgə ilə ifadə etmək bacarığına malik olacaq. Əsərin ideyasını gücləndirən işıq-kölgə və formaların təsvirini tətbiq edəcək. |
| **FTN 4.** Tematik əsərlərdə emosional və estetik təsiri artırmaq üçün ton və rəng harmoniyasını tətbiq edəcək. |
| **FTN 5.** Simvolika və ideya ötürməyi bacaracaq. Əsərin mövzusunu tamaşaçıya vizual dil vasitəsilə aydın və təsirli şəkildə çatdıracaq. |
| **FTN 6.** Yaradıcılıq və eksperiment bacarığına yiyələnəcək. Müxtəlif texnika, perspektiv və vizual effektlərlə yeni mürəkkəb quruluşlu tematik kompozisiyalar yaradacaq. Əsərlərin texniki və material |

| |
|---|
| keyfiyyətini nəzərə almağı bacaracaq. Dəzgah qrafikası əsərlərində istifadə olunan material və texnikanı nəzərə alaraq kompozisiyanın dayanıqlılığını təmin edəcək. |
| **Dəzgah qrafikasında tematik kompozisiya 2 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Kompozisiyanın bədii və məzmun baxımından qurulma prinsiplərini dərindən mənimsəyəcək, fikrini vizual obrazlarla ifadə etmək və onu qrafik dillə təqdim etmək bacarığı qazanacaq. |
| **FTN 2.** Mövzunun emosional məzmununu dərk edəcək, ideyanı ifadə edən əsas obrazları, hadisə məkanını və süjet xəttini planlaşdırmağı öyrənəcək. |
| **FTN 3.** Balans, ritm, kontrast və harmoniya prinsiplərinə əsaslanaraq kompozisiyanın bütövlüyünü və vizual təsir gücünü təmin edəcək. |
| **FTN 4.** Müstəqil şəkildə tematik kompozisiyalar hazırlamağı, ideyadan eskizə və yekun əsərə qədər olan bütün mərhələləri planlı şəkildə həyata keçirməyi bacaracaq. |
| **FTN 5.** Forma, məkan, ritm və rəng münasibətlərini qrafik ifadə vasitələri ilə birləşdirərək emosional və bədii təsir gücü yüksək olan əsərlər yaradacaq. |
| **FTN 6.** Peşəkar səviyyədə kompozisiya düşüncəsinə, bədii ideyanı ifadə etmə bacarığına və fərdi yaradıcı yanaşmaya malik bir qrafik rəssam kimi formalaşacaq. |
| **Yaradıcılıq işinin hazırlanması 1 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Yaradıcılıq işi vasitəsilə fərdi yaradıcılıq üslubunu qrafik sənətdə ifadə edəcək. |
| **FTN 2.** Ənənəvi texnologiyalardan (litoqrafiya, linoqravüra, kseloqrafiya və s.) istifadə etməklə orijinal bədii əsərlər yaradacaq (İstifadə olunan materiallar – Orqsteklo, kağız, karton, sink, mis, linolium, daş, ağac, polad uclu və müxtəlif ölçülü iynələr, oyma alətləri). |
| **FTN 3.** Yaradıcılıq işində mövzuya uyğun məzmun və forma həllinin harmonik və peşəkar şəkildə qurulmasını təmin edəcək. |
| **FTN 4.** Mövzunu bədii, fəlsəfi və ictimai aspektlərdən araşdıraraq, nəticələri əsaslandıracaq. |
| **FTN 5.** Müəllim rəhbərliyi altında, lakin şəxsi üslubunu və bədii baxışlarını qorumaqla yaradıcılıq işini müstəqil şəkildə tamamlayacaq. |
| **FTN 6.** Müəllimin nəzarəti altında təqdim olunan mövzuya uyğun eskizlər hazırlanacaq. Sonda eskizlər materiala köçürüləcək və lazım olunan materialda çap olunacaq. |
| **Yaradıcılıq işinin hazırlanması 2 fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Yaradıcılıq işi vasitəsilə yeni ideya və konsepsiyaları qrafik sənətdə ifadə edəcək. |
| **FTN 2.** Müasir qrafik texnologiyalardan (litoqrafiya, linoqravüra, kseloqrafiya və s.) istifadə etməklə orijinal bədii əsərlər yaradacaq (İstifadə olunan materiallar – Orqsteklo, kağız, karton, sink, mis, linolium, daş, ağac, polad uclu və müxtəlif ölçülü iynələr, oyma alətləri). |
| **FTN 3.** Yaradıcılıq işində mövzuya uyğun texniki həllin harmonik və peşəkar şəkildə qurulmasını təmin edəcək. |
| **FTN 4.** Yaradıcılıq işini planlaşdıracaq, mərhələlər üzrə icra edəcək, eskizlərdən yekun əsərə qədər ardıcıllığı izləyəcək. |
| **FTN 5.** Şəxsi üslubu və bədii baxışlarını əks etdirən yaradıcılıq işini müstəqil şəkildə tamamlayacaq. |
| **FTN 6.** Müvafiq mövzuya uyğun eskizlər hazırlayacaq. Sonda eskizlər materiala köçürüləcək və lazım olunan materialda çap olunacaq. 5 qrafik vərəqdən ibarət kompozisiya hazırlanacaq. |

| Dəzgah qrafikasında ənənəvi çap üsulları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Ənənəvi çap üsullarını biləcək və tətbiq etməyi bacaracaq. Linolyum, taxta, mis və digər klassik çap texnikalarını mənimsəyəcək və praktikada tətbiq edəcək. |
| **FTN 2.** Çap materiallarını və alətlərini düzgün istifadə etməyi bacaracaq. Müxtəlif kağız, boya və çap alətlərini texniki xüsusiyyətlərinə uyğun seçəcək və istifadə edəcək. |
| **FTN 3.** Çap texnikalarının estetik xüsusiyyətlərini tətbiq etməyi bacaracaq. Ton, xətt və tekstura ilə kompozisiyada estetik effekt yaradacaq. |
| **FTN 4.** Çap prosesinin mərhələlərini idarə etmək bacarığını inkişaf etdirəcək. Eskizdən son çap məhsuluna qədər bütün mərhələləri planlaşdıracaq və icra edəcək. |
| **FTN 5.** Rəng və ton harmoniyasını tətbiq edəcək. Monoxrom və çoxrəngli çap işlərində rəng balansı və tonlamanı düzgün tətbiq edəcək. |
| **FTN 6.** Çap işlərinin uzunmüddətli qorunması üçün material və texnika seçimini nəzərə alacaq. |
| **İşgüzar xarici dil fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Akademik yazı və danışıq qaydalarını, elmi dürüstlük prinsiplərini izah edə biləcək. |
| **FTN 2.** Elmi məqalənin strukturu və əsas komponentlərini sadalaya biləcək. |
| **FTN 3.** Akademik və işgüzar sənədləri (məktub, müraciət, CV, hesabat və s.) xarici dildə düzgün tərtib edə biləcək. |
| **FTN 4.** Esse yazma qaydalarını tətbiq edərək müxtəlif mövzularda esse hazırlaya biləcək. |
| **FTN 5.** Elmi məqalələri struktur, məzmun və üslub baxımından təhlil edə biləcək. |
| **FTN 6.** Nəşr etikası normalarını (istinad, müəlliflik hüquqları, plagiat) qiymətləndirə və öz işində tətbiq edə biləcək. |
| **Materialda işin texnologiyası fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Dəzgah qrafikası materiallarını bilmək və tətbiq etməyi bacaracaq. Kağız, kətan, taxta, metal və digər səthlərin xüsusiyyətlərini nəzərə alaraq işləri həyata keçirəcək. |
| **FTN 2.** Materialın seçimi və işlənməsi bacarığına yiyələnəcək. Əsərin ideyasına və texnikasına uyğun materialı seçəcək, onun səthini hazırlayacaq və emal edəcək. |
| **FTN 3.** Çap və qrafika işlərinin texnoloji mərhələlərini idarə etməyi bacaracaq. Eskizdən son məhsula qədər bütün mərhələləri planlaşdıracaq və icra edəcək. |
| **FTN 4.** Rəng və tonlamanı material xüsusiyyətinə uyğun tətbiq etməyi bacaracaq. Müxtəlif səthlərdə boya qatının tətbiqi, qarışdırılması və qurumasını idarə edəcək. |
| **FTN 5.** Fiziki və kimyəvi texnologiyalardan istifadə etməyi bacaracaq. Boyaların hazırlanması, qatların tətbiqi, qoruyucu lak və qatların istifadəsi kimi texnoloji üsulları tətbiq edəcək. |
| **FTN 6.** Müxtəlif material və texnologiyaları birləşdirərək yeni vizual effektlər yaradacaq. Materialın dayanıqlılığını nəzərə alaraq əsərin uzunmüddətli qorunması üçün tədbirlər görəcək. |
| **Bədii plakat fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Plakat sənətinin tarixi inkişaf mərhələlərini, üslub xüsusiyyətlərini və aparıcı cərəyanlarını dərindən mənimsəyəcək. |

| |
|---|
| **FTN 2.** Kompozisiya, rəng, ritm, tipoqrafika və vizual simvolikanın plakat sənətindəki rolunu anlayacaq. |
| **FTN 3.** Sosial, mədəni və ideoloji mövzuların plakat vasitəsilə bədii ifadə üsullarını analiz və ifadə edə biləcək. |
| **FTN 4.** Mövzuya uyğun bədii konsepsiyanı tamaşaçıya aydın və estetik formada çatdıracaq. |
| **FTN 5.** Qrafik ifadə vasitələrindən (kompozisiya, rəng, işıq-kölgə, font, simvol) yaradıcı şəkildə istifadə edəcək. |
| **FTN 6.** Müxtəlif sosial və mədəni kontekstdə plakatın bədii və kommunikativ funksiyasını dəyərləndirəcək. |
| **Qrafika əsərlərinin təhlili fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Qrafikanın tarixi və texniki inkişaf mərhələlərini – paleolit dövrü cızmalarından başlayaraq rəngli ksiloqrafiya, ofort, litoqrafiya, linoqravüra kimi ənənəvi və müasir texnikaları elmi-nəzəri əsaslarla sistemləşdirəcək və onların tətbiq imkanlarını izah edəcək. |
| **FTN 2.** Qrafik material və alətlərin funksional xüsusiyyətlərini – quru və sulu texnikaların (qələm, sangina, kömür, akvarel, tuş, metal qrifel və s.) bədii ifadədə yaratdığı fərqləri təhlil edəcək, material seçiminin kompozisiyaya və ton-ləkə həllinə təsirini müəyyənləşdirəcək. |
| **FTN 3.** Rəsm və çap qrafikasının texnologiyasını – hündür, dərin və səthi çap növlərinin (ksiloqrafiya, ofort, akvatinta, litoqrafiya, linoqravüra və s.) texniki ardıcıllığını, tiraj xüsusiyyətlərini və bədii dəyər meyarlarını tətbiqi baxımdan qiymətləndirəcək. |
| **FTN 4.** Qrafik əsərin kompozisiya və forma-struktur analizini – xətt plastikasının semantik funksiyalarını, ləkə və tonun kompozisiya içində rolunu, müstəvi-məkan münasibətlərinin qurulmasını və müəllif manerasının formalaşdırıcı amillərini elmi metodlarla müəyyənləşdirəcək. |
| **FTN 5.** Qrafika üslublarının və məktəblərinin tipologiyasını – İtaliya (Florensiya, Venesiya), Şərq miniatür ənənələri, Şimali Avropa qravür məktəbləri, Yapon ukiyo-e ənənələri, Azərbaycan qrafika məktəbi kimi istiqamətləri müqayisəli şəkildə tədqiq edəcək və tarixi-mədəni kontekstdə dəyərləndirəcək. |
| **FTN 6.** Qrafika əsərlərinin müstəqil kompleks elmi təhlilini aparacaq, ikonoloji-ikonqrafik şərh, texniki analiz, kompozisiya və üslub araşdırması kimi metodlarını tətbiq edəcək, nəticələri elmi-nəsr tərzində formalaşdıracaq və peşəkar səviyyədə təqdim edəcək. |
| **Təsviri sənət əsərlərinin təhlili fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Təsviri sənətin əsas sahələrinin – qrafika, rəngkarlıq və heykəltəraşlığın tarixi və texniki inkişaf mərhələlərini sistemləşdirəcək və onların bədii-estetik prinsiplərini elmi əsaslarla izah edəcək. |
| **FTN 2.** Təsviri sənətin növlərinə aid material və texnikaların - qrafik texnikalar (quru və sulu üsullar, çap texnikaları), rəngkarlıq texnikaları (tempera, yağlı boya, akvarel, freska, mozaika) və heykəltəraşlıq texnikaları (yonma, yapma, tökmə) - xüsusiyyətlərini təhlil edəcək və bu xüsusiyyətlərin əsərin bədii nəticəsinə təsirini müəyyənləşdirəcək. |
| **FTN 3.** Təsviri sənət əsərlərinin kompozisiya-struktur təhlilini aparcaq: xətt, ton, rəng, faktura, kolorit, həcm, məkan, perspektiv, balans, ritm, dinamika və siluet kimi elementlərin funksiyasını elmi metodlarla şərh edəcək. |

| |
|---|
| **FTN 4.** Üslubi və məktəb ənənələrini müqayisəli şəkildə dəyərləndirəcək: Şərq və Qərb bədii məktəblərinin, müxtəlif klassik və modern istiqamətlərin, eləcə də Azərbaycan təsviri sənətinin əsas üslub xüsusiyyətlərini identifikasiya edəcək və təhlildə tətbiq edəcək. |
| **FTN 5.** Təsviri sənət əsərlərinin ideya-məzmun və semantik təhlilini aparacaq: ikonoloji və ikonqrafik metodlardan istifadə etməklə obrazın mənalandırılmasını, simvolik qatların açılmasını, motivin tarixi və mədəni kontekstlə əlaqəsini müəyyənləşdirəcək. |
| **FTN 6.** Təsviri sənət əsərlərinin kompleks elmi təhlilini müstəqil şəkildə formalaşdıracaq: texniki, kompozisiya, üslub, məzmun və kontekst analizlərini birləşdirərək peşəkar sənətşünaslıq nəticələri hazırlayacaq və onları elmi-nəsr üslubunda təqdim edəcək. |
| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| **FTN 2.** Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| **FTN 3.** Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| **FTN 4.** Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| **FTN 5.** Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| **FTN 6.** Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

**Əlavə 2**

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 |
| Akademik yazı və etika | | | | | | x | | |
| Layihələrin idarə olunması | | | | | | | | x |
| Ali məktəb pedaqogikası və psixologiyası | | | | | x | | | |
| Dəzgah qrafikasında akademik rəngkarlıq 1 | | | | X | | | | |
| Dəzgah qrafikasında akademik rəngkarlıq 2 | | | | x | | | | |
| Dəzgah qrafikasında tematik kompozisiya 1 | | | x | x | | | | |
| Dəzgah qrafikasında tematik kompozisiya 2 | | | x | x | | | | |
| Dəzgah qrafikasında akademik rəsm 1 | | | x | x | | | | |
| Dəzgah qrafikasında akademik rəsm 2 | | | x | x | | | | |
| Yaradıcılıq işinin hazırlanması 1 | | x | x | x | | | x | |
| Yaradıcılıq işinin hazırlanması 2 | | x | x | x | | | x | |
| Dəzgah qrafikasında ənənəvi çap üsulları | | x | | | | | | |
| İşgüzar xarici dil | | | | | | x | | |
| Materialda işin texnologiyası | | x | | | | | | |
| Bədii plakat | | x | | | | | | |
| Qrafika əsərlərinin təhlili | x | x | x | x | | x | | |
| Təsviri sənət əsərlərinin təhlili | x | x | x | x | | x | | |
| Elmi-pedaqoji təcrübə | | | | | x | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Təsviri sənət kafedrasının müdiri:** ____________ **Rəşad Cabarov**

**ADMİU-nun Rəssamlıq fakültəsinin dekanı:** ____________ **Səyalı Quliyeva**